26 iyul 2018-ci il, cümə axşamı
XALQ QƏZETİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 325** **Bakı şəhəri, 24 iyul 2018-ci il**

**“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının 1.1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 671; 2016, № 2 (II kitab), maddə 391, № 3, maddə 586; 2017, № 10, maddə 1875; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 iyun tarixli 248 nömrəli qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin strukturu”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.5-ci bənddə “Zərdab, Kürdəmir, Sabirabad və Saatlı” sözləri “Zərdab və Kürdəmir” sözləri ilə əvəz edilsin.

**2.** 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.7. Cənub Regional Enerji Təchizatı və Satışı İdarəsi (Lənkəran) - Lənkəran, Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı, Lerik və Astara rayon elektrik şəbəkələri;”.

**3.** Aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

“2.8. Şirvan Regional Enerji Təchizatı və Satışı İdarəsi (Şirvan) - Şirvan, Hacıqabul, Salyan, Neftçala, Sabirabad və Saatlı rayon elektrik şəbəkələri.”.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***